# İNCƏSƏNƏTƏ HƏSR OLUNMUŞ HƏYAT – BƏHRUZ KƏNGƏRLİ

Əsl rəssam həmişə öz zamanını qabaqlayır. Böyük Avstriya yazıçısı Frans Kafka deyirdi ki, bəzən yaradıcılıq irəliyə qaçır – lap saat kimi. Axı hər bir insanın ürəyindən az da olsa bu gündən gələcəyi görmək, sabaha addım atmaq arzuları keçir, lakin belə xoşbəxtlik nadir adamlara nəsib olur – demək mümkünsə, ancaq alimlərə, rəssamlara, filosoflara və mistiklərə. Bunlar hamısı özünəməxsus fərdiliklə, eyni bəsirət vergisinə malikdirlər. Və həyatda hərəsinin öz yolu, öz tale yazısı var. Dünyanın bədii dərk metodlarını bir araya gətirərək fərqli nöqteyi-nəzərlərdən kimisi kvant mexanikasının qanunlarını açır, digəri şəhərlər salır, yeni maşınlar kəşf edir, başqası sərbəst idrak məkanında yaşayaraq gözəl fəlsəfi konsepsiyalar qurur, kimisi də həyatını yeni rəngkarlıq üslubunun inkişafına həsr edir.

**Bütün hadisələrdə fərqlilik deyil, oxşarlıq görmək kimi dünyagörüşü produktivdir. Bu gün ən dəyərli mərkəzdən qaçan qüvvə deyil, məhz mərkəzə dogru meyillənən qüvvələrdir, axı dünya konflikt təfəkkürdən artıq yorulub! Azərbaycan rəngkarlığına bu nöqteyi-nəzərdən baxsaq, görərik ki, üfüqdə realistik rəngkarlığımızın banisi Bəhruz Kəngərli ulduzu parlayır. Məndən ötrü onun şəxsiyyətinin əsasını maarifçilik, vətənpərvərlik və alicənablıq təşkil edir. Sadalanan cəhətlər isə bütöv xarakterin bünövrəsidir. Bunu daha yaxşı anlamaq üçün gərək dahi rəssamın yaşadığı zamanı təsəvvür edək – XIX əsrin sonunu.**

Zaman da insanlar kimi fərqlidir: maraqlı, ya maraqsız, coşub-qaynayan, ya donmuş; zamanın da yüksəliş və ya enmə dövrü olur. XIX əsrin sonunda Azərbaycan mədəniyyəti Qərbə doğru addımlamağa başladı və bu, zamanın hökmü idi. Neft bumu həyatın bütün növlərində yeniliklərə gətirdi, cəmiyyətin şüuru kamilləşməkdə idi, çünki zaman özü yüksəlisdəydi. Azərbaycan mentallığı Şərqin mahiyyət mədəniyyəti ilə Qərbin şəxsiyyət mədəniyyətini sintezləşdirərək yenilikləri mənimsəyirdi.

Özündə çoxəsrlik ənənələri yaşadan Azərbaycan incəsənəti, musiqisi, ədəbiyyatı, teatrı və bütövlükdə mədəniyyəti Qərb üslublarını və metodlarını əxz elədi. Məhz bu zaman Üzeyir bəy Hacıbəyli fenomeni dünyaya gəldi!

Çar Rusiyasında Qafqazın inzibati mərkəzi Tiflis idi və ancaq burada Avropa meyilli professional bədii təhsil almaq olardı. Bəhruz Kəngərli də məhz Tiflis bədii rəssamlıq məktəbində təhsil almışdı. O, qədim Oğuz tayfalarından sayılan Kəngərli tayfasının nümayəndəsi olan Naxçıvan şəhər məhkəməsinin tərcüməçisi Şirəli bəy Kəngərlinin ailəsində 1892-ci ildə dünyaya göz açmışdı, bunlardan hələ romalı tarxçılər Strabon və Böyük Plini yazırdılar. Naxçıvan xanları, böyük sərkərdələr, məşhur Naxçıvan şairləri Qonçabəyim və Heyran xanım həmin tayfadan idilər. Hələ uşaqlıq illərində ağır xəstəlik nəticəsində eşitmə qabiliyyətini itirmiş və böyük istedadına baxmayaraq məktəbdən kənarlasdırılmışdı. Balaca Bəhruz ilk uşaqlıq illərindən şəkil çəkməyi sevər, həmişə evdəki “Molla Nəsrəddin” dərgisindəki Rotterin və Şmerlinqin şəkillərini kopiyalayardı. Və indi, həmyaşıdları ilə ünsiyyətdən məhrum qalandan sonra bütövlükdə öz bədii aləminə qapılır. Bundan sonra gələcəyin böyük sənətkarının dinməz, səssiz aləmində ancaq rənglər və boyalar danışır və oxuyur. 1908-ci ildə atası Şirəli bəy onu Tiflisə təhsil almağa göndərir və 1915-ci ildə akademik təhsilini başa çatdırır. Artıq 1914-ci ildə gənc Bəhruz


Bəhruz Kəngərli


Bəhruz Kəngərli. Türbə



Naxçıvan. Sınıq minarəli məscid



İki qadın fiquru



Məqbərə

doğma Naxçıvanda öz ilk fərdi sərgisini açır. Şəhərin qəzetləri bu hadisəni geniş işıqlandırır. "İqbal" qəzeti yazırdı: "Gənc rəssam (onun 22 yaşı var!) doğrudan da bizim gələcək fərəhimiz olacaq! O bizim, Azərbaycan həyatından təsvirlər verir, bunlar milli şəkillərdir!"

1920-ci ildə Bəhruz bəy şəhər məktəbində bədii-ictimai dərnək açır və burada uşaqlara təmənnasız rəsm və rəngkarlıq dərsləri keçir. 1921-ci ildə yeni böyük fərdi sərgisi acılır. Bəzən Bəhruz bəy sərgiləri öz evində keçirər, şəkillərindən əlavə, dekorativ-tətbiqi sənət incilərini – bədii tikmələri, qədim saxsı qabları, daş oymaları nümayiş etdirərək Azərbaycan incəsənətinin genis təbliğatını aparardı.

Həmişə xəstəlik və əzab içində olan, dinməz, kar rəsam sərgilərində tamamilə dəyişirdi – böyük maraqla uşaqlara və onların valideynlərinə incəsənətdən danışar, izah edər, maarifləndirər, doğma mədəniyyətə maraq və məhəbbət oyadardı.

Qısa həyatı (1892–1922) ərzində Bəhruz Kəngərli 2 mindən çox şəkil yaratmışdır, bunların içində mənzərələr, portretlər, natürmortlar, karikaturalar, teatr dekorasiyaları və səhnə kostyumlarının eskizləri var. Realizmin banisi təki Azərbaycan dəzgah rəngkarlığına forma plastikliyi, xətti və hava perspektivi, məkanlıq, incə ton mütənasibliyi və işıq-kölgə modelləşdirilmə kimi üslub ifadə vasitələri gətirib.

Kəngərliyə qədər Azərbaycan rəngkarlığında natürmort və avtoportret janrı yox idi, bunları ilk dəfə məhz o yaratmışdır. Rəssam doğma mənzərələri böyük məhəbbətlə canlandırırdı. O, Naxçıvanın təbiətini və memarlıq abidələrini əks etdirən şəkillərdən ibarət albomlar qurur və onları "Naxçıvandan xatirə" adlandırırdı. Ancaq daha çox portretlərə vaxt sərf edirdi: özünün, qohumlarının, dostlarının, koloritli insanların şəkillərini yaradırdı.

Bəhruz bəyi təkcə zahiri oxşarlıq maraqlandırmırdı, o, modelin daxili aləmini duymaq və kətan uzərində canlandırmaq istəyirdi. Və bəlkə də bundan ötrü 1917-ci ildən ömrünün axırınadək (1922) Ermənistandakı dədə-baba yurdlarından qovulmus qaçqın soydaslarımızın portretlərini yaradırdı – o zaman Naxçıvan məcburi köçkünlərlə dolu idi. Bəhruz bəy balaca qaçqın uşaqları küçədə görərkən evinə gətirib yedizdirir, geyindirir, pulu olanda pul da verir, bundan sonra onların şəkillərini çəkirdi. Bu gün bizim Milli İncəsənət Muzeyimizdə saxlanılan Kəngərlinin uşaq portretləri məhz belə yolla ərsəyə gələn əsərlərdir.

**Bəhruz bəy İrəvan mahalından köçən qaçqınların vəziyyətini çox böyük kədər və ürək ağrısı ilə qarşılayırdı. Onun qaçqınlar mövzusunda portretləri yüksək emosionallıq və psixoloji dərinliklə işlənib, rəng və kompozisiyaları çoxtəmkinli və ciddidir. Portretlər naturadan açıq havada, plenerdə işlənilib.**

Bəhruz Kəngərli həmişə çox kitab oxuyurdu, onun demokratik baxışları yeni Azərbaycan ədəbiyyatı və qabaqcıl ziyalıların parlaq fikirlərinin təsiri altında formalaşırdı. Gimnaziya bitirmiş, Quberniya Məhkəməsində 3 dildən tərcüməçi vəzifəsində çalışan atası Şirəli bəy Kəngərli Naxçıvan zadəganları ilə dostluq edirdi. Bunlar Paşa bəy Sultanov, Məmməd Səid Ordubadi, Məmmədqulu bəy Kəngərli, Eynalı bəy Sultanov və digərləri idi. Bəhruz Kəngərlinin də atası kimi Naxçıvan təhsili və maarifçiliyi üçün əvəzsiz xidmətləri olmuşdur. O, respublikada ilk Avropa təhsili almış və realist üslubda peşəkar rəssam kimi fəaliyyət göstərən yaradıcı insan idi. Cox xeyirxah, təvazökar, gənc, utancaq, dinməz-danışmaz, xəstəlik içində yaşayan xəyalpərəst, istedadlı, alicənab, işgüzar və vətənpərvər rəssam idi. Bəhruz Kəngərli cəmi 30 il ömür sürdü, ancaq həmin illəri Azərbaycan incəsənətinə həsr elədi. Bu il dahi sənətkarın anadan olmasının 125 illiyidir. Onun əziz və unudulmaz xatirəsi önündə baş əyək...

Gülrənə Qacar